# "Qaradağ" GES bu ilin payızında istifadəyə veriləcək

## "Masdar" və ADNOC ilə bərpaolunan enerji və karbohidrogen sektorunda əməkdaşlıq müzakirə edilib

**"Bakı Enerji Həftəsi" çərçivəsində energetika naziri Pərviz Şahbazov ilə BƏƏ-nin Əbu-Dabi Milli Neft Şirkətinin (ADNOC) Aşağı Karbon Həlləri və Beynəlxalq İnkişaf üzrə icraçı direktoru və "Masdar" şirkətinin İdarə Heyətinin üzvü Musabbeh Al Kaabinin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş olub.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında yüksəksəviyyəli münasibətlərin "Masdar" ilə irimiqyaslı bərpaolunan enerji layihələri üzrə uzunmüddətli əməkdaşlığın sütunu olduğu vurğulanıb. 230 meqavatlıq "Qaradağ" GES-in bu ilin payızında istifadəyə veriləcəyi, bununla da "Masdar"ın layihələrin vaxtında reallaşdırılmasına sadiq olduğu qeyd edilib. Ümumi gücü 4 QVt olan digər layihələrin icrası ilə bağlı da əhəmiyyətli irəliləyişlər olduğu, bərpaolunan enerji güclərinin ölkənin enerji sisteminə inteqrasiyası üçün elektrik şəbəkəsinin öyrənilməsinə "Masdar"ın dəstəyi və bu xüsusda görülən işlər diqqətə çatdırılıb. Şəbəkənin idarə edilməsi sahəsində təcrübə mübadiləsi məqsədilə yaxın vaxtlarda birgə seminar keçirilməsi razılaşdırılıb.

Həmçinin karbohidrogen sektorunda əməkdaşlığa dair SOCAR və ADNOC arasında aparılan müzakirələrə də toxunulub. Şirkətin karbonsuzlaşdırma sahəsində təcrübəsi, aşağı karbonlu enerji istehsalçısına çevrilməsi, karbon tutma, eləcə də "yaşıl", "mavi" hidrogen və ammonyakın istehsalı ilə bağlı fəaliyyətindən bəhs edilib. Aşağı karbon həlləri üzrə əməkdaşlıq imkanları dəyərləndirilib.

Azərbaycan.- 2023.-2 iyun.- S.4.